İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Noyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı




"Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyev tərəfindən 2017-ci il 13 noyabr tarixli müvafiq Fərman imzalanmışdır.

Fərmana çərçivəsində, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə, aşağıdakı müddəaların tətbiqi öz əksini tapmışdır:

- "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi;

- "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin strukturu"nun təsdiq edilməsi;

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Aparatının işçilərinin say həddinin 75 ştat vahidi müəyyən edilməsi;

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun yaradılması;

Fərman çərçivəsində müəyyən edilmiş müddəalara əsasən, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra – İnstitut) qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmalar aparmaqla elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini həyata keçirmək, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, qida məhsullarına dair digər beynəlxalq standartların qida məhsullarının istehsalçıları tərəfindən könüllü tətbiqi, qida məhsullarının təhlükəsizliyi göstəriciləri üzrə tədqiqat xidmətləri göstərmək kimi funksiyaları həyata keçirəcəkdir.

Fərmana uyğun olaraq, İnstitutda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilmişdir:

**Azərbaycan Respublikasının Prezidenti:**
- İnstitutun yenidən təşkil və ləğv edilməsi;

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:**

- nizamnamənin və strukturun təsdiqi;

- nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

- icra orqanının yaradılması və onun səlahiyyətlərinin müəyyənləşdirilməsi;

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə:**

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**Azərbaycan Respublikasının Nazirlər Kabineti:**

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası qanunlarının uyğunlaşdırılması ilə bağlı təkliflərin üç ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərin üç ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edərək Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

- "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 3.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələrinin işçilərinin say həddi barədə təkliflərin hazırlanaraq bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- İnstitutun nizamnaməsinin və strukturunun təsdiq edilməsi, habelə nizamnamə fondunun formalaşdırılmasının təmin edilməsi və bu barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

- Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə İnstitutun maddi-texniki təminatı ilə bağlı məsələlərin iki ay müddətində həll edilməsi;

- Dövlət orqanları və qurumlarının, təsdiq edilmiş Əsasnamədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsinə xidmət edən ştat vahidlərinin ixtisarı ilə bağlı təkliflərin üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasının nəzarətdə saxlanılması və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

- Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edərək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməsi Fərman çərçivəsində verilən tapşırıqlar arasında öz əksini tapmışdır.


www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
info@ereforms.org
(+994)12 5213318
/ iqtisadiislahat